# Minatəmizləmə fəaliyyəti haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 16-cı və 20-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin hüquqi, iqtisadi, sosial və təşkilati əsaslarını müəyyən edir.

## 1-ci fəsil

## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **qeyri-texniki tədqiqat** – fiziki müdaxilə edilmədən təhlükəli ərazidə partlayıcı sursatların olub-olmaması, olduğu halda onların növünün və yerinin müəyyən edilməsi ilə bağlı məlumatların toplanılması və təhlili sahəsində işlər;

1.1.2. **mina** – yer səthinin və ya digər səthin üstündə, altında və ya yaxınlığında əvvəlcədən quraşdırılmış, insanın və ya nəqliyyat vasitəsinin mövcudluğu, yaxınlığı və ya bilavasitə təsiri ilə partlamaq üçün nəzərdə tutulmuş partlayıcı sursat;

1.1.3. **mina əleyhinə fəaliyyət** – minatəmizləmə fəaliyyəti, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə, zərərçəkmişlərə dəstək göstərilməsi və partlayıcı sursatların sosial, iqtisadi və ətraf mühitə təsirinin azaldılması üzrə tədbirlərin məcmusu;

1.1.4. **minatəmizləmə fəaliyyəti** – qeyri-texniki və texniki tədqiqat, təmizləmə və keyfiyyətə nəzarətlə əlaqədar görülən işlər;

1.1.5. **minatəmizləmə fəaliyyətinə dair tələblər (bundan sonra – tələblər)** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən, minatəmizləmə fəaliyyətinə dair ümumi norma və qaydaların əks olunduğu sənəd;

1.1.6. **minatəmizləmə fəaliyyəti üzrə icraçı (bundan sonra – icraçı)** – minatəmizləmə ilə əlaqədar fəaliyyət planı əsasında minatəmizləmə fəaliyyətinə cəlb edilən dövlət orqanı (qurumu), habelə bu Qanuna uyğun olaraq müqavilə əsasında minatəmizləmə fəaliyyətinə cəlb olunan fiziki və ya hüquqi şəxs;

1.1.7. **minatəmizləmə fəaliyyəti üzrə səlahiyyətli qurum (bundan sonra – səlahiyyətli qurum)** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

1.1.8. **minatəmizləmə ilə əlaqədar fəaliyyət planı (bundan sonra – fəaliyyət planı)** – səlahiyyətli qurum və icraçılar üçün minatəmizləmə fəaliyyəti ilə əlaqədar konkret tapşırıqları müəyyən edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən sənəd;

1.1.9. **minatəmizləyən** – minatəmizləmə fəaliyyətini bilavasitə təhlükəli ərazilərdə həyata keçirən şəxs;

1.1.10. **partlayıcı sursat** – kütləvi qırğın silahları və onların sursatları istisna olmaqla, mina, partlayış üçün hazır vəziyyətə gətirilmiş, o cümlədən silahdan atılaraq, buraxılaraq və ya uçan vasitədən atılaraq partlaması nəzərdə tutulmuş, lakin partlamamış və ya qismən partlamış sursat, o cümlədən kasset sursat, istifadə edilməmiş, döyüş vəziyyətinə gətirilmiş və ya gətirilməmiş halda tərk edilmiş partlamamış sursat, əldədüzəlmə partlayıcı qurğular və ya onların partlayıcı tərkib hissələri;

1.1.11. **standart əməliyyat prosedurları** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tələblərə və mina əleyhinə beynəlxalq standartlara uyğun olaraq müəyyən edilən və minatəmizləmə fəaliyyətinin texniki xüsusiyyətlərini əks etdirən təlimatlar toplusu;

1.1.12. **texniki tədqiqat** – fiziki müdaxilə edilməklə təhlükəli ərazidə partlayıcı sursatların olub-olmaması, olduğu halda onların növünün və yerinin müəyyən edilməsi ilə bağlı məlumatların toplanılması və təhlili sahəsində işlər;

1.1.13. **təhlükəli ərazi** – partlayıcı sursatların olması ehtimal edilən ərazi;

1.1.14. **təmizləmə** – təhlükəli ərazidə aşkar edilmiş partlayıcı sursatların çıxarılması, zərərsizləşdirilməsi və məhv edilməsi;

1.1.15. **zərərçəkmiş** – partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar bədən xəsarəti almış və (və ya) psixoloji yardıma ehtiyacı olan və (və ya) maddi zərər dəymiş şəxs.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

### Maddə 2. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

### Maddə 3. Bu Qanunun tətbiq dairəsi

3.1. Bu Qanun Azərbaycan Respublikasında mina əleyhinə fəaliyyətin, o cümlədən minatəmizləmə fəaliyyətinin təşkilinə və həyata keçirilməsinə şamil edilir.

3.2. Bu Qanun Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycan Respublikasının təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məqsədilə aparılan mina əleyhinə fəaliyyətə şamil edilmir.

## 2-ci fəsil

## MİNA ƏLEYHİNƏ FƏALİYYƏTİN TƏŞKİLİ VƏ HƏYATA KEÇİRİLMƏSİ

### Maddə 4. Mina əleyhinə fəaliyyət sahəsində dövlət siyasətinin istiqamətləri

4.1. Mina əleyhinə fəaliyyət sahəsində dövlət siyasətinin istiqamətləri aşağıdakılardır:

4.1.1. əhalinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi, iqtisadi, sosial və ekoloji inkişafa şəraitin yaradılması məqsədilə partlayıcı sursatların yaratdığı təhlükənin aradan qaldırılması;

4.1.2. minatəmizləmə fəaliyyətinin təhlükəsiz və səmərəli təşkili üçün normativ hüquqi bazanın formalaşdırılması;

4.1.3. təhlükəli ərazilərdə həyat və sağlamlıq üçün təhlükənin olması barədə əhalinin məlumat almaq hüququnun təmin edilməsi;

4.1.4. zərərçəkmişlərə qanunla müəyyən edilmiş dəstək tədbirlərinin göstərilməsi və minatəmizləyənlərə təminatların verilməsi.

### Maddə 5. Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmə

5.1. Minatəmizləmə fəaliyyəti fəaliyyət planına, tələblərə və standart əməliyyat prosedurlarına uyğun olaraq səlahiyyətli qurum, minatəmizləmə fəaliyyətinə cəlb olunan və bu Qanunla müəyyən edilmiş tələblərə cavab verən dövlət orqanları (qurumları), habelə fiziki və ya hüquqi şəxslər tərəfindən həyata keçirilir.

5.2. Fəaliyyət planına əsasən minatəmizləmə fəaliyyətinə cəlb olunan dövlət orqanları (qurumları) aşağıdakılara malik olmalıdırlar:

5.2.1. həyata keçiriləcək minatəmizləmə fəaliyyəti üzrə hazırlanmış daxili əməliyyat prosedurlarına;

5.2.2. müvafiq ixtisaslı minatəmizləyənlərə, habelə onların hüquq və vəzifələrini əks etdirən təlimatlara;

5.2.3. minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi zamanı əməyin mühafizəsinin, o cümlədən təhlükəsizliyin təmin edilməsi imkanına;

5.2.4. heyvanların köməyi ilə partlayıcı sursatların aşkarlanması nəzərdə tutulduğu halda bu fəaliyyətin həyata keçirilməsi imkanına;

5.2.5. minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün vasitə, alət və avadanlıqlara;

5.2.6. minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar təhlükəli ərazinin yaxınlığında ixtisaslı tibb işçilərindən və zəruri tibbi vasitələrlə və avadanlıqla təchiz olunmuş nəqliyyat vasitələrindən ibarət təcili tibbi yardımın göstərilməsi imkanına.

5.3. Fəaliyyət planına əsasən minatəmizləmə fəaliyyətinə cəlb olunan dövlət orqanları (qurumları) bu Qanunun 5.2-ci maddəsində müəyyən edilmiş tələblərə uyğun olmalarının qiymətləndirilməsi üçün həmin tələblərin mövcudluğunu təsdiq edən sənədlər əlavə edilməklə, səlahiyyətli quruma müraciət etməlidirlər. Müraciətə daxil olduğu gündən 30 (otuz) gün müddətində baxılır.

5.4. Dövlət orqanının (qurumunun) bu Qanunun 5.2-ci maddəsində müəyyən edilmiş tələblərə uyğun olmadığı müəyyən edildikdə, müraciətin daxil olduğu tarixdən ən geci 10 (on) gün müddətində müraciət edənə bu barədə sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat göndərilir. Məlumatda sənədlərdəki uyğunsuzluqlar dəqiq göstərilməlidir. Həmin uyğunsuzluqlar məlumat alındığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırılmalıdır. Bu zaman, bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulmuş müddətin axımı dayandırılır və uyğunsuzluqların aradan qaldırılması barədə məlumat daxil olduqdan sonra müddətin axımı bərpa olunur.

5.5. Minatəmizləmə fəaliyyətini həyata keçirən fiziki və ya hüquqi şəxslərə münasibətdə bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş tələblərlə yanaşı, həmçinin onların idarəetmə, təşkilati və maliyyə-iqtisadi resurslara malik olmalarının müəyyən edilməsi məqsədilə əlaqədar aşağıdakıların mövcudluğu qiymətləndirilir:

5.5.1. hüquqi şəxslərin və xarici hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatına, habelə fiziki şəxslərin vergi uçotuna alınması;

5.5.2. fiziki və ya hüquqi şəxsin müqavilə üzrə öhdəliklərinin icrası üçün maliyyə imkanlarına malik olması;

5.5.3. minatəmizləmə fəaliyyəti ilə əlaqədar əvvəl bağlanılmış müqavilə (müqavilələr) üzrə öhdəliklərinin icra vəziyyəti;

5.5.4. tələblərə uyğun idarəetmə sistemlərinin (o cümlədən risklərin, əməliyyatların, məlumatların, təhlükəsizliyin və keyfiyyətin idarəetmə sistemlərinin) tətbiqi və bunu təmin edəcək təşkilati strukturun formalaşdırılması;

5.5.5. minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi zamanı yarana biləcək təhlükələrdən minatəmizləyənlərin bu Qanunun 12.1-ci maddəsinə uyğun sığortalanmasını təmin etmək imkanı.

5.6. Fiziki və ya hüquqi şəxslərin bu Qanunun 5.2-ci və 5.5-ci maddələrində müəyyən edilmiş tələblərə uyğunluğunun qiymətləndirilməsi səlahiyyətli qurum tərəfindən müraciət daxil olduğu gündən 60 (altmış) gün müddətində həyata keçirilir. Müraciətə bu Qanunun 5.2-ci və 5.5-ci maddələrində nəzərdə tutulan tələblərin mövcudluğunu təsdiq edən sənədlər əlavə olunur.

5.7. Müraciətə əlavə olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə məlumat müraciətin daxil olduğu tarixdən ən geci 5 (beş) iş günü müddətində müraciət edənə sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada göndərilir. Məlumatda sənədlərdəki çatışmazlıqlar dəqiq göstərilməlidir. Həmin çatışmazlıqlar məlumat alındığı tarixdən ən geci 10 (on) iş günü müddətində aradan qaldırılmalıdır. Bu zaman, bu Qanunun 5.6-cı maddəsində nəzərdə tutulmuş müddətin axımı dayandırılır və çatışmazlıqların aradan qaldırılması barədə məlumat daxil olduqdan sonra bərpa olunur.

5.8. Bu Qanunun 5.2-ci və 5.5-ci maddələrində müəyyən edilmiş tələblərə uyğun olduqları müəyyən edildiyi halda müvafiq olaraq bu Qanunun 5.3-cü və 5.6-cı maddələrində nəzərdə tutulmuş müddətlərdə müraciət edənin minatəmizləmə fəaliyyətini həyata keçirməyə uyğun olması barədə, əks halda isə səbəbləri göstərilməklə imtina barədə qərar qəbul edilir və müraciət edənə bu barədə sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat göndərilir.

5.9. Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

5.10. Dövlət orqanlarının (qurumlarının), fiziki və ya hüquqi şəxslərin müraciətləri əsasında səlahiyyətli qurum tərəfindən onların minatəmizləyənlərinə standart əməliyyat prosedurlarına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada təlimlər keçirilir və təlimlərin nəticəsində qiymətləndirmə aparılaraq sertifikat verilir.

5.11. Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılmasına və təlimlərin keçirilməsinə görə fiziki və ya hüquqi şəxslər (dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) tərəfindən səlahiyyətli quruma müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məbləğdə haqq ödənilir.

**Maddə 6. Təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyəti**

6.1. Qeyri-texniki və texniki tədqiqat zamanı toplanılmış, həmçinin dövlət orqanlarından (qurumlarından), fiziki və ya hüquqi şəxslərdən daxil olmuş və ya mediada yayımlanmış məlumatlar əsasında səlahiyyətli qurum təhlükəli ərazilərə dair məlumatları bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə daxil edir.

6.2. Təhlükəli ərazidə minatəmizləmə fəaliyyətinə başlanması barədə icraçı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), dövlət sərhədinin mühafizəsi aparılan təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyəti həyata keçirilərkən isə həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) 5 (beş) iş günü əvvəlcədən sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat verməli və bu ərazilərdə minatəmizləmə fəaliyyəti həmin orqanla (qurumla) qarşılıqlı əlaqədə həyata keçirilməlidir.

6.3. Minatəmizləmə fəaliyyətinin həyata keçirildiyi təhlükəli ərazilərdə işin təşkili ilə əlaqədar icraçılar aşağıdakılara riayət etməlidirlər:

6.3.1. şəxslərə və yaxınlıqda yerləşən obyektlərə, habelə ətraf mühitə zərər vurulmasının qarşısının alınması üçün təhlükəsizlik tədbirlərinin görülməsi;

6.3.2. təhlükəli ərazilərlə bağlı xəbərdarlıq və işarələmə sistemlərinin tətbiqi, o cümlədən təhlükəli və təmizlənmiş ərazilərin aydın şəkildə işarələnməsi;

6.3.3. minatəmizləyənlər, mexaniki vasitələr (mexaniki minatəmizləmə maşınları, xüsusi təyinatlı texnikalar və s.) və minatəmizləmə fəaliyyətinə cəlb edilmiş heyvanlar arasında təhlükəsizlik məsafələrinin saxlanılması və nəzarət məntəqələrinin qurulması;

6.3.4. təhlükəli ərazilərdən kənarda zəruri dəstəyin (əməliyyatların icrası üçün zəruri olan kölgələnəcək, səyyar anbar, brifinq zonası, nəqliyyat vasitələrinin duracağı və s.) təşkili;

6.3.5. təhlükəli ərazinin yaxınlığında müvafiq ixtisaslı tibb işçilərindən, zəruri tibbi vasitələrlə və avadanlıqla təchiz olunmuş nəqliyyat vasitələrindən ibarət təcili tibbi yardımın təşkili.

6.4. İcraçı fəaliyyət planına uyğun olaraq ona həvalə edilmiş təhlükəli ərazilər üzrə bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan informasiya sisteminin məlumat bazasının məlumatlarından istifadə etməklə qeyri-texniki tədqiqat aparır və onun nəticələri əsasında müvafiq ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan texniki tədqiqat planını tərtib edir və səlahiyyətli qurumla razılaşdırılmaqla icra edir.

6.5. İcraçı bu Qanunun 6.4-cü maddəsində göstərilən texniki tədqiqat planının icrası nəticələrinə uyğun olaraq hazırlanmış hesabat əsasında təmizləmə planı tərtib edir və səlahiyyətli qurumla razılaşdırılmaqla icra edir.

6.6. Texniki tədqiqat və təmizləmə bu Qanunun 5.10-cu maddəsinə uyğun olaraq qiymətləndirilmədən müvəffəqiyyətlə keçmiş və müvafiq sertifikata malik minatəmizləyənlər tərəfindən yerinə yetirilir.

6.7. Aşkar edilmiş partlayıcı sursatların zərərsizləşdirilməsi və məhv edilməsi tələblərə və standart əməliyyat prosedurlarına uyğun olaraq həyata keçirilir. Partlayıcı sursatların zərərsizləşdirilməsi və ya yerləşdiyi ərazidən çıxarılması mümkün olmadıqda onlar həmin ərazidə məhv edilir. Zərərsizləşdirilmiş və yerləşdiyi ərazidən çıxarılmış partlayıcı sursatlar təhlükəsizlik qaydalarına riayət etməklə daşınaraq bu məqsədlə ayrılmış yerlərdə məhv edilir.

6.8. Partlayıcı sursatların məhv edilməsi zamanı partlayışla əlaqədar ərazi üzərində hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tələblərə uyğun olaraq azı 3 (üç) iş günü əvvəlcədən rəsmi qaydada məlumatlandırılmalıdır.

6.9. Bu Qanunun 6.4-cü və 6.5-ci maddələrində nəzərdə tutulan fəaliyyətin nəticələrini əks etdirən hesabatlar təmizləmə planının icrası yekunlaşdıqdan sonra, bu Qanunun 6.7-ci maddəsində nəzərdə tutulmuş fəaliyyətin nəticəsini əks etdirən hesabat isə partlayıcı sursatların zərərsizləşdirilməsi və məhv edilməsi işləri başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü müddətində icraçı tərəfindən səlahiyyətli quruma təqdim edilir.

6.10. Minatəmizləmə fəaliyyəti zamanı aşkar edilmiş odlu silah və onun əsas hissələri, habelə təhlükəli maddələr, səlahiyyətli qurum sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumatlandırılmaqla, icraçı tərəfindən akt əsasında dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təhvil verilir.

6.11. Minatəmizləmə fəaliyyəti zamanı aşkar edilən əşyanın mədəni və ya tarixi əhəmiyyətə malik olması ehtimalı olarsa, həmin ərazidə işlər dayandırılır və əraziyə kənar şəxslərin daxil olmasının qarşısının alınması təmin edilməklə icraçı tərəfindən dərhal bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat verilir.

6.12. Minatəmizləmə fəaliyyəti zamanı insan meyiti (meyit hissələri) və ya qalıqları aşkarlandıqda həmin ərazini qorumaq şərtilə icraçı tərəfindən bu barədə dərhal aidiyyəti hüquq mühafizə orqanlarına rəsmi qaydada məlumat verilir.

6.13. Minatəmizləmə fəaliyyəti həyata keçirilmiş ərazilər və bu zaman aşkar edilmiş partlayıcı sursatlar barədə məlumatlar bu Qanunun 9.2-ci maddəsinə uyğun olaraq bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə daxil edilməlidir.

6.14. Səlahiyyətli qurum tərəfindən təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyəti bu Qanunun 6.2 – 6.12-ci maddələrinin tələbləri nəzərə alınmaqla fəaliyyət planı əsasında həyata keçirilir.

**Maddə 7. Səlahiyyətli qurumun xüsusi təyinatlı nəqliyyat vasitələri**

Səlahiyyətli qurumun minatəmizləmə əməliyyatlarında təcili və təxirəsalınmaz tədbirlərin yerinə yetirilməsi, habelə partlayıcı sursatların

daşınmasında istifadə edilən xüsusi təyinatlı nəqliyyat vasitələri operativ nəqliyyat vasitələri hesab edilir.

**Maddə 8. Minatəmizləmə fəaliyyətində keyfiyyətə nəzarət**

8.1. Minatəmizləmə fəaliyyətinin keyfiyyətinə nəzarət çərçivəsində tələblərdə və standart əməliyyat prosedurlarında nəzərdə tutulmuş qaydada həmin fəaliyyətin monitorinqi və təhlükəli ərazilərin təmizləmə keyfiyyətinin qiymətləndirilməsi həyata keçirilir.

8.2. Keyfiyyətə nəzarət zamanı icraçı tərəfindən tələblərin və standart əməliyyat prosedurlarının pozulması halı aşkar edildikdə səlahiyyətli qurum icraçıdan pozuntunun aradan qaldırılmasını tələb edir.

8.3. İcraçı 15 (on beş) gün müddətində bu Qanunun 8.2-ci maddəsində nəzərdə tutulmuş pozuntunun aradan qaldırılmasını təmin etməli və bununla bağlı görülmüş işlərə dair səlahiyyətli quruma rəsmi qaydada məlumat verməlidir.

8.4. Səlahiyyətli qurumun pozuntunun aradan qaldırılmasına dair tələbi icra edilmədikdə və ya bu Qanunun 8.3-cü maddəsinə uyğun olaraq məlumat verilmədikdə, icraçının təhlükəli ərazidəki fəaliyyəti həmin pozuntular aradan qaldırılanadək səlahiyyətli qurum tərəfindən dayandırılır.

8.5. Minatəmizləmə fəaliyyəti tamamlanmış ərazilər səlahiyyətli qurum tərəfindən təmizləmə keyfiyyətinin qiymətləndirilməsi aparıldıqdan sonra tələblərə uyğun olaraq rəsmiləşdirilir.

**Maddə 9. Minatəmizləmə fəaliyyəti sahəsində məlumatların toplanılması, idarə olunması və istifadəsi**

9.1. Minatəmizləmə fəaliyyəti ilə bağlı məlumatların toplanılması, idarə olunması və istifadəsi üçün səlahiyyətli qurum tərəfindən minatəmizləmə fəaliyyətinə dair informasiya sistemi formalaşdırılır və aparılır.

9.2. Səlahiyyətli qurum və icraçılar tərəfindən aparılmış qeyri-texniki və texniki tədqiqat, təmizləmə, minatəmizləmə fəaliyyəti həyata keçirilmiş ərazilər və bu zaman aşkar edilmiş partlayıcı sursatlar, partlayıcı sursat qurbanları barədə, habelə bu Qanunda nəzərdə tutulmuş digər məlumatlar minatəmizləmə fəaliyyətinə dair informasiya sisteminə daxil edilir.

9.3. Minatəmizləmə fəaliyyətinə dair informasiya sistemi haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

**Maddə 10. Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə**

10.1. Səlahiyyətli qurum əhali arasında partlayıcı sursatların təhlükəsinə dair maarifləndirici tədbirlər həyata keçirir, o cümlədən partlayıcı sursatların təhlükələri, bununla əlaqədar dövlət orqanlarının (qurumlarının), fiziki və ya hüquqi şəxslərin vəzifələri, təhlükəli ərazilər və həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə bağlı maarifləndirici materialların hazırlanması və yayılmasını təmin edir.

10.2. İnsanların həyat və sağlamlığına, əmlakına ziyan vurulmasının qarşısının alınması məqsədilə təhlükəli ərazilərin sərhədlərində xəbərdarlıq

nişanlarının yerləşdirilməsi səlahiyyətli qurum və ya həmin ərazidə minatəmizləmə fəaliyyətini həyata keçirən icraçılar tərəfindən təmin olunur.

**Maddə 11. Zərərçəkmişlərə dəstək tədbirləri**

11.1. Zərərçəkmişlərə "Psixoloji yardım haqqında" və "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq ödənişsiz psixoloji və tibbi yardım göstərilir.

11.2. Əlilliyi müəyyən edilmiş zərərçəkmişlərin hüquqları "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təmin edilir.

## 3-cü fəsil

## YEKUN MÜDDƏALAR

**Maddə 12. Minatəmizləyənlərin təminatları**

12.1. Minatəmizləyənlərin minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi zamanı yarana biləcək təhlükələrdən sığortalanması müvafiq olaraq "Tibbi sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

12.2. Minatəmizləyənlərin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 13. Mina əleyhinə fəaliyyətin maliyyələşdirilməsi**

Mina əleyhinə fəaliyyət dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**Maddə 14. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 dekabr 2024-cü il
№ 90-VIIQ